

# özüylə söhbəti...

...özümlə söhbətim elə mənim hekayələrimdir...

# ...və hekayələri



## XIRDA BƏHANƏLƏR

***Böyük quşlar köçüb gedəndən sonra xırda quşlar payızın qulağına nəsə pıçıldayırdılar...***

Tərənə VAHİD

Onların daxması kəndin qurtaracağında, ağaclarının göyə millәndiyi zəhmli palıd meşəsinin düz ağzındaydı. İncəvara, daxmanın üzü kəndə tərəf idi, axşamlar meşədə canavarlar ulayıb çaqqallar səs-səsə verəndə daxma işığı yanan kəndə baxıb ürəklənirdi.

Daxmanın da qəribə görkəmi vardı. Taxtapuşunun bir tərəfi əyildiyindən uzaqdan papağını yan qoyub macəra axtaran şuluq uşağa oxşayırdı. Elə bilirdin, nəfəsini alan kimi yerindən götürülüb kəndə tərəf qaçacaq. Amma qaçıb eləmirdi. Gün boyu daxma adamın gözünə də birtəhər dəyir, haldan-hala düşürdü. Səhərlər qollarını çırmalaya-çırmalaya günəşin gözünə baxıb "Bu gün biçin başlayacaq!" – deyən əkinçiyə, günorta bostan oyuğuna, gün əyilib meşənin o üzünə aşanda ayaq üstə mürgüləyən yorğun qocaya oxşayırdı.

Görünüşünə fikir verməyin, bu daxmada dünyada tayı-bərabəri olmayan, oyunları bitib-tükənməyən, sevincləri yerə-göyə sığmayan nənəylə nəvə yaşayırdı. Birinin altı, o birinin altmış altı yaşı olsa da, elə bil yaşıdıydılar.

Düzdü, həyat nənəni döyə-döyə istədiyi şəklə salmışdı. Anaş toyuğa oxşayan bu yastı-yapalaq qarı tükü-tükdən seçər, yazda qışın, qışda yazın tədarükünü görər, bostanda, meşədə, dağda, düzdə, çayda – hər yerdə gözə dəyərdi.

Nəvəsini də körpəlikdən o saxlamışdı. İndi əli çomaqlı, telli-toqqalı yekə kişiydi. Hər dəfə nənəsi:

– Çomağına nənən qurban, ay evimin yaraşığı, ömrümün naxışı – deyəndə uşaq əlindəki qupquru çomağa baxıb içini çəkərdi. Ona elə gələrdi ki, bir gün möcüzə baş verəcək, bu quru çomaq əlində yaşıllaşıb böyük ağaca çevriləcək. Elə yekələcək ki, qol-budağı köhnə daxmalarını qanadı altına alıb onları dünyanın bütün yamanlıqlarından qoruyacaq. Hər səhər nənəsinin gözündən yayınıb daxmaya söykədiyi çomağına baş çəkər, zoğ atıb-atmadığını yoxlayardı. Çomağını quru taqqıldanaq kimi görəndə ümidini itirməz, gör hələ nə qədər səhərlər var, – deyib özünə təskinlik verərdi. Nənəsinin dediyi

kimi, səhərlər Gözəgörünməzin kitabının səhifələriydi. Nənəsi deyərdi ki, bu kitab bir ucdan peydərpey yazılır. Nə bitən deyil, nə də tükənən.

Nəvə nənəsinin qurduğu dünyada xoşbəxt idi. Hərdən kəpənəklər, parabüzənlər, qanadlı həşəratlar başlarının üstündə dövrə vurub sevinclərinə şərik olar, həyatlarına rəng qatardılar. Nənəsi demişkən, xoşbəxtlik üçün padişahzad olmaq gərək deyildi, xoşbəxtlik üçün sevgi bəs edirdi. Bu köhnə, taxtapuşu əyilmiş daxmada o qədər sevgi, istək, şəfqət vardı ki, bütün dünyaya bəs edərdi.

Səhərlər odun peçinin üstündə qaynayan südün ətri dalğa-dalğa ətrafa yayılıb nəvənin burnunu qıdıqlayanda taxta qapının o üzündən nənənin güllü səsi gələrdi:

– Ay savağın xeyir olsun, ay üzünə xeyir savaxlar açılsın, ay günün uğurlu olsun, dur gör bizə kim gəlib?

Nəvə mitilin içindən boynunu uzadıb gözləri gülə-gülə:

– Kim gəlib? – soruşardı.

– Bu gün bizə günəş gəlib, başına dönüm, düz damımızın üstünəcən gəlib, deyir, şirin nəvən harda gizlənib, niyə gözümə dəymir?

Nəvə uşaq marağıyla yerindən dik atılar:

– Məni soruşdu, hə?! – deyib nənəsinin yanından güllə kimi keçib günəşin görüşünə gedərdi.

Qonaq gəlməyən evə günəşin gəlməsi toy-bayram olardı.

Sonra yaz gələrdi, nənəsi ona “Yazın mübarək, dərdin ürəyimə, qışda sənə danışdığım yaz vardı ha, zərif qanadlarıyla qara qışı qovub uzaqlaşdıran yaz, bax, gələn onun özüdür” – deyərdi. Uşaq nə cavab verəcəyini bilməzdi, əslində o, günəşdən çox, yazdan çox, anasının yolunu gözləyərdi. Bir dəfə nənəsi ona demişdi ki, sənin anan da bir gün yaz kimi səssiz-səmirsiz gələcək. O, anasını görməmişdi, xatırlamırdı, amma hər yaz gözləri kolun dibindəki nərgizə sataşanda bu şux, sarı çiçəyi anasına bənzədərdi. Amma ürəyindən keçənləri nənəsinə deməzdi. Ürəyinə dəyər, ürəyinə toxunar deyə, deməzdi. Xırda addımlarla gedib çöp kimi barmaqlarıyla nənəsinin cadarlı əlindən tutar:

– Nənə, yazın mübarək! – deyərdi.

Hamının unutduğu bu daxmada nənə-nəvə xırda sevinclərlə günü günə calayar, heç nədən özlərinə bayram düzəldərdi. Köhnə daxma sevincdən cilvələnər, hərdən divarlarında yaşıl otlar da bitərdi.

“Günün mübarək, yağışın mübarək, yarpağın mübarək, isti çörəyin mübarək, təzə soğanın mübarək, yamağın mübarək...”

Bir belə sevincin içində darıxmaq olardı?

Ayda-ildə bir dəfə, unları azalıb kisənin dibində qalanda nənəsi nəvəsini yanına alıb kəndə gedərdi. Qarşılaşdıqları adamlar tələsik salam verib keçərdilər. Bircə dükançı Osman kişi nənəsiylə əməllicə hal-əhval tutar, hərdən onun başını sığallayıb:

– Maşallah, yekə kişi olmusan, nənəndən muğayat ol, – deyərdi.

Uşaq bu sözlərdən utanar, çiyinlərini qısar, balaca əllərini şalvarının cibində gizlədərdi.

Nənəsi dükançı Osmandan sabun, duz, nəvəsinə finka, pamazı köynək, hərdən də utana-utana özünə alt paltarı alardı. Lap axırda da bir kisə unu ərki çatan adamın ulağına yükləyib apardı. Heç borclu da qalmazdı, xırda bez torbada qurutduğu dənə lobyadan, qozdan-fındıqdan, qaxdan ulaqhaqqı verərdi ulağın sahibinə.

Gələni yola salan kimi nəvə nənəsinin səsləyib əliylə un kisəsini göstərər, sevinə-sevinə:

– Unumuz mübarək! – deyərdi.

* * *

Bu qış həmişəkindən tez gəldi. Nənəsi qışın mübarək deməmiş, nəvəsi qarın mübarək dedi. Nənə-nəvə qara qışı işıqlı sözlərlə rəngləyə-rəngləyə yarıladı.

Amma qış uzandıqca uzanır, qurtarmaq bilmirdi. Tərslikdən qışın çilləsində unları da qurtardı. Nənə güllü şalını başına örtdü, dəvə yunundan olan şalını ortasına bağladı, nəvəsini də yanına alıb qarı yara-yara kəndə endi. Belə qarlı havada uzaq yol nənənin gözünə dursa da, nəvənin sevinci yerə-göyə sığmırdı, Mərdanı görəcəkdi. Mərdan dükançı Osmanın nəvəsiydi. İnişil dostlaşmışdılar. Mərdan ondan iki-üç yaş böyük olardı, ya olmazdı. Necə dostlaşdıqlarını heç özləri də bilmirdilər. Hər dəfə un almağa gedəndə ikisi də dükanın arxasına qaçıb oynayar, söhbətləşərdilər. Mərdan ona maraqlı şeylərdən,

balıq tutmaqlarından, kinoda gördüklərindən danışardı. O da nəfəs çəkmədən Mərdana qulaq asar, ondan ayrılmaq istəməzdi. Bir dəfə necə oldusa Mərdanın əlindən tutub "Gəl bizə gedək" – dedi.

Elə bil Mərdanı ilan vurdu, əlini geri çəkib:

– Yox – dedi.

– Niyə?

– Anam qoymaz.

– Niyə?

Anam deyir ki, ondan uzaq dur.

Pərt olsa da, özünü o yerə qoymadı.

– Mənim bitim yoxdu ki, – deyib əlini başına çəkdi.

Bit söhbəti deyil ey. Hamı deyir ki, anası onu atıb gedib. Anam deyir, yazıq uşağın nə günahı var, anası gərək belə iş tutmayaydı.

Eşitdiyi sözlər onu üşütdü.

– Anam məni atmayıb ki, uzağa gedib, nənəm deyir, bir gün yaz kimi gələcək.

Mərdandan aralanıb nənəsinin yanına qaçdı. Geri dönəndə yol boyu ağzını açıb bir kəlmə də kəsmədi. Onsuz da nənəsi ulağın yiyəsi ilə nə barədəsə xısın-xısın danışırdı. Daxmalarına çatanda başını ot tayasının içinə salıb zülüm-zülüm ağladı.

O gün nənəsinin rəngli sözləri, işıqlı alqışları, alabəzək oyunları sehrini itirib adiləşdi. O gün heç nənəsinə "Unumuz mübarək!" – də demədi.

O gündən sonra nəvə əvvəlki nəvə olmadı. Yumurtası tərs gələn toyuq kimi nənəsinin yanında o tərəf-bu tərəfə vurnuxur, gecələr balaca əllərini başının altında daraqlayıb nə barədəsə uzun-uzadı fikirləşirdi.

Nəvəsinin qəribəlikləri nənənin gözündən qaçmadı, axır əlacı kəsildi:

– Nə fikirlisən, dərdim ürəyimə, de görüm, nolub, niyə quş kimi səksəkəlisən?

– Nənə, mən bir şey bilirəm.

Nənəsi özünü itirdi.

– Nəyi bilirsən?

– Anamın məni atdığını.

Nənəsi eşitdiklərinə inanmadı.

– Bunu sənə kim deyib?

– Mərdan. O, hər şeyi danışdı. Dedi ki, anana görə heç kim səninlə dostluq eləmək istəmir. Hamının zəhləsi gedir bizdən.

Nənəsi onu bərk-bərk qucaqlayıb saçından, paltarından, əllərindən öpdü.

– Qoy hamının bizdən zəhləsi getsin, istəmirlər, heç un da verməsinlər, qonşu kənddən gətirərik, ürəyini sıxma, dərdin ürəyimə.

O gecə nənə-nəvə bir-birinə sarılıb yatdılar.

Qara qış arxada qaldı. Nənə-nəvə sağ-salamat yaza çıxdılar. Gecələrin birində nəvə qorxulu bir yuxu gördü. Gördü ki, kəndin içiylə qaça-qaça: "Nənə, ölümün mübarək, nənə, ölümün mübarək! – deyib qışqırır. Amma səsinə heç kim səs vermir. Heç Mərdan da...

Yuxudan ayılanda ürəyi quş ürəyi kimi döyünürdü. Bayırdan qarışıq səslər gəlirdi. Yatağından qalxıb qapıya yaxınlaşdı. Nənəsinin cingiltili səsi aləmi bürümüşdü:

– Çölə çıx, ömrüm-günüm, gör kim gəlib?

O qorxa-qorxa qapının arasından boylandı. Taxta darvazalarının yanında yaşıl paltarlı bir qadın dayanmışdı. Günəş rəngli saçları güllü yaylığının altından şəlalə kimi çiyinlərinə dağılmışdı. Nənəsinin dediyi kimi: "O, yaz kimi səssiz-səmirsiz gəlmişdi..."

Qapını aralayıb yalın ayaqlarıyla qadına tərəf qaçdı. Ayaqları torpaqdan üzüldü, kimsə onu havaya qaldırıb bağrına basdı, zərif ətir ağlını başından aldı, nənəsinin titrək səsini eşitdi:

– Anan mübarək!

İndi köhnə daxma papağı yan qoyan şuluq uşağa, bostan oyuğuna, yorğun qocaya yox, qanadları olan sehrli saraya oxşayırdı. Günəş barmaqlarıyla daxmanın başını sığallayır, kəpənəklər rəqs edir, üzünə təbəssüm qonmuş meşə ağacları xorla oxuyur, Gözəgörünməz kitabının yeni səhifəsini yazırdı...

## DONQARSIZ KÜÇƏLƏR

*O, bütün olanları görürdü...*

– Ora bax, ora, o arvadın belinə bax, uy daaa...

Hər dəfə uşaqlar onu görəndə söz atar, fitə basar, gözdən itənəcən zəhləsini tökərdilər. Onun da gücü söyüşə çatardı. Təpə kimi donqarın altında çətinliklə başını, daha doğrusu, bədənini döndərib:

– Köpək uşağı, elə bil donqar-filan görməyiblər, onsuz da dərdim özümə bəsdi, əl çəkin yaxamdan, – deyərdi.

Uşaqlar bir yana, hərdən ağlıqıt böyüklər də söz atıb donqarını güclə daşıyan arvadın könlünü bulandırardılar.

Sözün qısası, donqarı dünyanı Cahan arvadın başına dar eləmişdi. Bilmirdi, öz dərdini çəksin, donqarının dərdini çəksin, yoxsa əsir torpağının.

Yurd-yuvasından perik düşəndən sonra Cahan arvadın başına nələr gəlmədi ki? Evini itirəsən, ata-ananın, ərinin qəbrini qoyub gələsən, madar balanla qərib yerdə tələbə yataqxanasına sığınasan, nabələd yerdə Allahdan başqa söykənəcəyin olmaya, özündə təpər tapıb qapılarda iş axtarasan, xalça yuyasan, tualet təmizləyəsən, xəstəyə baxasan, bir belə dərdin içində andıra qalmış bir dərd də axtarıb tapa səni.

Əslində Cahan arvad donqar-filan deyildi, elinin-obasının gözəl-göyçək gəlinlərindən biriydi. Yurd-yuvasından didərgin düşən ilin qışında kürəyinə yara çıxdı.

Yazı yazanın qələmi yeddi yerdən qırılsın, – deyirdi Cahan arvad. Bir belə müsibətlə, dərdlə, əyimiş çiyninə başqa bir dərd də qoydu.

Əvvəl xırda bir sızanağıydı. Heç fikir də vermədi, bekara şeydi, çıxıb gedəcək, dedi. Bir də onda xəbər tutdu ki, yarası əməlli-başlı böyüyüb. Böyüdü, böyüdü, o qədər böyüdü ki, gül kimi Cahan arvadı hamı donqar Cahan çağırdı. Bircə Allaha yalvarırdı ki, donqarı day bundan artıq böyüməsin.

Köhnə paltarları əyninə olmurdu. Qayçıyla donunun kürəyini kəsib çıxarmışdı. Paltarını geyinəndə qızıyla köməkləşib əvvəl donqarını geyindirirdi, sonra başını keçirirdi. Kimsə iri bir jaket vermişdi. Donqarı jaketin altından dağ kimi dikəlirdi. Boynu donqara təslim olub əyilmişdi. Dərd kimin başını əymir, həyat kimi sındırmır ki? Onsuz da həyatın dibindəydilər. Həyatın dibi də qapısı, pəncərəsi olmayan daş karxanasıdı. Ölənəcən daş çapmalısan, daş atmalısan, daş yonmalısan. Qapısı olmayan yerdən necə çıxa bilərsən? Ümid edə bilərsən, özünü inandırarsan ki, bir gün bir qapı açılar, gözləyərsən, sonda ümidlərinin qanadı sallanar, ümid ağacın quruyar. Bu quyudan çıxmaq üçün möcüzə olmalıdır. Cahan arvad dünyanı görmüşdü, kirpiyiylə od götürmüşdü, möcüzə-filan gözləmirdi.

Donqar çıxarandan sonra adamlar bu bədheybət adamdan eyməndi, heç kim evinə buraxmadı, iş-güc vermədi, hara getdisə, əliboş qayıtdı. Əlacı hər yerdən üzüləndə ağlına bircə şey gəldi: tum satsın.

O satan, bu satan, Cahan arvad tumsatan oldu. Səhərdən axşamacan şəhərin nabələd küçələrini dolaşıb hər gün qazandığı qəpik-quruşla balasını ölməyə qoymadı. Dişiylə-dırnağıyla həyatdan yapışdı. Bir müddətdən sonra taxta yeşik tapıb tum ləyəninin yanına xırım-xırda şeylər də düzdü. Saqqız, “bakuş”, iynə, şam, əlinə keçən nə varsa... Soyuqda, sazaqda, istidə, yağışda kimsə onu işindən qopara bilmədi. O ağır illərdə Cahan arvad müharibə içində müharibə yaşadı. Sahə polisləri gündə neçə dəfə onu yerindən didərgin saldı, Cahan arvad da ləyəni qoltuğuna vurub quş yuvasına qayıdan kimi hərlənib-fırlanıb yenidən yerində peyda oldu. Yaşamaq üçün min dona girdi küləkli küçələrdə. Yoldan ötənlər yekəpər bədəni, iri donqarı, zolaqlı corabları olan bədheybətə gülürdülər. O da xəlvətcə köks ötürüb keçirdi...

Belə-belə həyat Cahan arvada hər şeyi öyrətdi.

Qızının kəkili çıxan kimi ərə verdi. Başıma bir iş gələr, uşaq ortalıqda qalar qorxusuyla. Allahdan kürəkəni mərhəmətli idi. Heç vaxt onun donqarına lağ eləmədi, könlünə dəymədi, onlara sahib çıxdı. Cahan təpərli arvad idi, qızıma, kürəkənimə yük olmayım deyə, tum ləyənini yerə qoymadı.

Bir dəfə kürəkəni “Səni həkimə aparaq, əməliyyat elətdirək, o zəhrimara qalmışdan canın qurtarsın” – dedi.

Gözləri dolmuş Chan arvad:

– Donqarımla işiniz olmasın, qoy hamı görsün, qoy hamı gülsün. O donqar deyil ha, mənim dərdlərimdi. Donqarımın kökləri buramda, əliylə sinəsini göstərdi, bax, burdadı, – dedi.

Cahan arvadın tək dərdi donqar dərdi deyildi. Cahan arvad yaralı torpağın, sütül-sütül torpağa tapşırılan oğulların, öləndə son kəlməsi vətən olan qocaların, bala deyəndə dodağı on yerdən çat verən şəhid analarının dərdini çəkirdi. Cahan arvad çeşid-çeşid dərdlərin od köynəyindən keçmişdi, donqarı bunların yanında nəyiydi ki? Dərdini daşıyan adam hələ ki, yükünü həm kürəyində, həm ürəyində daşıyırdı. Donqar Cahanın dərdi hələ ki, böyük şəhərin gündən-günə gözəlləşən küçələrində ara-sıra gözə dəyirdi. Cahan arvad qorxurdu ki, öləndən sonra donqarsız adamlar dərdini görməyəcək və bütün olanlar unudulacaq...

## KƏNDİR

***Gecənin kəndiri kəsilmişdi, intihar yağmırdı...***

İntihar xəbəri xırda qar kimi əvvəlcə şəhərlərin, sonra kəndlərin üstünə yağdı. O gün adamların baxışları öləzidi, gözlərinin giləsindən kəndir asıldı. Başqalarının əlindən kəndir alan adamın öz boynuna kəndir salması qorxutmuşdu ağlında kəndir dolaşan adamları. İntihar xəbəri küçədə, yolda, izdə, evdə adamların içinə yağırdı... hamı pıçapıçla, təlaşla, vahiməylə psixoloqun ölümündən danışırdı. Amma kimsə ekranlarda böyük şövqlə, səmimiyyətlə, açıq ürəklə, qayğıkeşliklə həyatın gözəlliyindən, ümiddən, sevgidən danışan adamın ölümünə inanmırdı. Yox, o belə etməzdi, ondan kömək gözləyənlərin ümidini kəsməzdi...

Göydən intihar yağırdı... Sonra, sonra intihar xəbərinin üstə şübhə yağdı: intihar, yoxsa qətl?! Çox qətllər intihar adıyla basdırıldı, çox intihar xəstəlik damğasıyla malalandı...

Adamların gümanı yüz yerə gedirdi... intihardan başqa...

O gün uşaqdan böyüyə hər kəsin qulağında intihar nəğməsi səsləndi, hər kəsin ürəyindən kəndir keçdi. Dükançı Səfi dükanının bir küncündə tökülüb qalmış bir şələ kəndiri həmin gün xırıd elədi. Kəndirsiz bir ev də qalmadı. Bircə Ənbərin gücü çatmadı kəndir almağa. Axşam köhnə ayaqqabılarını sürüyə-sürüyə qonşusu Səlimgilin qapısını döyüb borca kəndir istədi. Səlim kəndiri verdi, amma bərk-bərk tapşırdı ki, yubatmasın, işini bitirən kimi qaytarsın, gərəyi olacaq.

Ənbərin dodağı qaçdı, ağzındakı iki-üç çürük dişi qaraldı...

O gecə hamı yuxuda intihar gördü. Gördülər ki, bütün şəhərlər, bütün kəndlər, bütün qəsəbələr intihar edir. Məscidlərin birində sağ qalan son molla əbasına bürünüb son duasını edir, dua edir ki, kəndiri qırılmasın...



## DAŞ

Biri vardı, biri yoxdu. Yer üzündə bapbalaca fındıq boyda, yox, fındıqdan bir az böyük, qozdan bir az kiçik, çəlimsiz, kələ-kötür, dınqılı bir daş vardı. Balaca qara daş böyük bir qayadan qopandan sonra uzun müddət keçmişin xiffətini çəkmiş, belə böyük dünyada tək-tənha necə yaşayacağını düşünəndə ürəyi ayağının altına düşüb qorxusundan ağlamışdı da. Amma neyləyə bilərdi, olan olmuşdu. Gör yer üzündə nə qədər onun kimi xırda, yöndəmsiz, köməksiz daşlar vardı.

Bapbalaca daş özündə təpər tapıb xırdalığıyla yenicə barışmaq istəyirdi ki, iki yekə daş başının üstünü kəsdirib başdan-ayağa onu süzdü, hardan gəlib hara getdiyini xəbər aldı. Qərib daş nə qədər yaxasını kənara çəkmək istəsə də, alınmadı. Əvvəl istədi ki, səsini içinə salıb sussun, bacarmadı, xırdalığını ört-basdır eləmək üçün xırda ağzını açıb xırda-xırda xeyli üyüdüb tökdü. Nə qədər dəridən-qabıqdan çıxsa da, xeyri olmadı, onu buynuzladılar, top kimi ayaqlarında çilədilər, nə gözünün yaşına baxdılar, nə də burnunun suyuna.

Elə bil möcüzə baş verdi, insan ayağı dəyməyən bu yerdə kimsə ayaq saxlayıb rəngi avazımış daşı yerdən götürüb cibinə atdı. Xırda daş heç vaxt belə rahat, isti, xəta-bəlasız yerdə olmamışdı. Kefi duruldu, azacıq mürgülədi, sonra xırda əllərini dizinə sürtüb qərara gəldi ki, keçmişini unudub gələcəyə baxsın.

Xırda olmağına baxmayın, əslində xırda daş yer üzündə olanlar barədə xeyli xırım-xırda şeylər bilirdi. Bilirdi ki, xırda adamlar, xırda balıqlar, xırda həşəratlar kimi, xırda daşların da gələcəyi yoxdu. Yaşamaq deyilən hiss iriliyə, xırdalığa baxmır ha. Hardansa bir səs deyir ki, xırda xırda kimi, böyük böyük kimi yaşamalıdı. Bu yerdə xırda daş köks ötürdü. Sonra xırda, yaşarmış gözlərinin suyunu kədəriylə sildi.

Adamın cibində yeri rahat olsa da, içində qəribə bir narahatlıq vardı. Axı adamlar barədə çox az şey bilirdi. Daşlar çox nadir hallarda adamlardan danışırdı. Axı adamlar daşların nəyinə lazımdı?!

Xırda daş özünə təskinlik verirmiş kimi çarpanaqlı kəkilini arxaya daraqlayıb taleyini adamın ixtiyarına buraxdı.

Adam getdi, getdi, az getdi, çox getdi, o qədər getdi ki, daş yorğun olduğundan xurt düşüb daş kimi yatdı. Oyananda özünü böyük bir evdə, stolun üstündəki büllur qabda gördü. Gördükləri möcüzənin özüydü. Ömrü boyu açıq havada, yağışda, qarda, günəşin altında yaşayan xırda daş sevincindən var gücüylə bağırmaq istədi. Amma həməncə hisslərinə qalib gəlib qartmaqlı əliylə ağzını yumdu. Düşündü ki, özünü nə qədər ağır aparsa, o qədər yaxşıdı. Necə də olsa, dağdan qopmuş qayanın zərrəsiydi, görməmişlik edib özünü biabır eləməsin. Bir də düşündü ki, çəkdiyi bütün müsibətlərin qarşılığında daşların Tanrısı onu mükafatlandırıb. Yerdə qalan ömrünü bu cəh-cəlallı evdə keçirəcək, daş ömrünün xoşbəxt anlarını yaşayacaq, həyatdan zövq alacaq, bu da olacaq indiyə kimi çəkdiyi bütün əzab-əziyyətlərin əvəzi, ədalətin təntənəsi. Xırda qara daşın ürəyi köksünə, xəyalları böyük evə sığmırdı. "Özün belə xırda olasan, xəyalların yerə-göyə sığmaya!" – böyük ürəkli xırda daş özünə güldü də!

Xırda daş, arzuladığı kimi, bir müddət bu evdə, büllur qabın içində səssiz-səmirsiz, xoşbəxt yaşadı. O, evdə baş verənləri maraqlı film kimi izləyir, adamların həyatı ona maraqlı gəlirdi. Onu xilas edən adam – evin sahibi geoloq idi. Geoloqun çəlimsiz arvadı yunan mifologiyasından elmi iş yazır, ərini böyük sevgiylə "Apollon" çağırırdı. Hərdən də evdə həngamə qopurdu. Apollon xəlvətcə sevgilisiylə mesajlaşır, arvadı duyuq düşəndə cır səsiylə aləmi bir-birinə qatır, ərinin gününü göy əskiyə bükürdü.

Hələ məktəbli uşaqlar... bu evdə o qədər ağlasığmaz hadisələr baş verirdi ki, xırda daş darıxmağa macal tapmırdı.

Amma bir gün qadın evi təmizləyəndə daşı gördü. Tərslikdən həmin gün əriylə aralarında soyuq müharibənin anonsu keçmişdi. Qadın da "Boşanacağam" – deyib bağları dibindən qoparmaq istəmişdi. Düzdü, indi dediyi sözə görə it kimi peşman idi, amma özünü o yerə qoymurdu. Belə bir vaxtda zəhərini xırda daşın üstünə tökdü: camaatın əri başqa planetdə şirkət açır, mənimki də daş-çınqıl axtarır! Səninlə rastlaşdığım günə daş düşəydi!

Xırda qara daşı indiyə kimi heç kim belə təhqir eləməmişdi. Qadının qarğışının bir ucu onu tutduğundan büzüşüb quru paxla dənəsi boyda oldu.

Bu yerdə Apollon gəlib çıxdı, daşı arvadının əlində görəndə Makedoniyalı İsgəndərin xəzinəsini tapan adam kimi sevinib bütün umu-küsünü unutdu. Gör bu daşı neçə müddət idi axtarırdı?

Kişi sevinclə daşı alıb cibinə atdı. Dünyanın ən gözəl sözlərini o gün simiclik eləmədən arvadına yağdırdı.

Bir gündən sonra xırda qara daş gözünü daşların mənşəyini təhlil edən laboratoriyada açdı. Burda eybəcər şüşələrin içində özü kimi xırda, solğun, ölüvay daşlar vardı. İmkan düşən kimi daşlardan biri onu barmağıyla yanına çağırıb pıçıldadı: ay yazıq, sən bura niyə gəlmisən, bura daşların ölüm kamerasıdı. Səni də bizim kimi şüşəyə salacaqlar, üstünə kimyəvi maddələr töküb əridəcəklər. Bunun nə demək olduğunu bilirsən? Hardan biləsən, bu cəhənnəm əzabından da betərdi, qaç, qaç, canını qurtar!

Xırda daş belə qapalı yerdən hara qaça bilərdi. Qaça bilmədi. Yaxşı bildiyi adam onu şüşəyə atıb üstünə pis qoxulu məhlul tökdü. Daşın ürəyi az qala ağzına gələcəkdi. Xırda daş onu tapıb gətirən adamı ürəyində lənətləyir, kimyəvi maddələr daş dərisini yandırdıqca dünyadakı bütün daşlara qışqıra-qışqıra belə bir ismarıc yollayırdı: adamlardan qorxun, adamlardan uzaq durun, onların yalançı mərhəmətinə inanmayın, bir-birinizdən qopmayın, bölünməyin, yadlaşmayın, yad daş olmayın!!!

Nağılımızın sonunda göydən üç daş düşdü. Bu, sadəcə, xəbərdarlıqdı...



# QASIRĞA

***...Kəpənəklər uçur, uçur, uçur...***

Onun hekayəsi, hamı kimi, xırda bir uçuşdan başladı. Dünya hava limanına qonar-qonmaz sallaq bığlı bir kişi əyilib qulağına şəcərəsinin baş tacını – soyadını pıçıldadı:

Çalağanov!

Guya yer üzündə adlar qurtarmışdı ki, ulu babası dünyanın gözünü töküb züryətinə belə yönsüz ad qoymuşdu: Çalağan... Heç sonrakı nəsillər də Çalağanın qan-qadasından qurtara bilmədilər. Şura hökuməti gələndə Çalağanın arxasına oraq-çəkicli "ov" şəkilçisi yapışdırıb dövriyyəyə buraxdı. Məktəbdə oxuyanda uşaqlar soyadına xeyli şəbədə qoşdular. Əsgərlikdə ruslar bu soyadı nə deyə, nə də yoza bildilər. Ali məktəbdə də bu nadir soyadı rüşvətxor müəllimlərin parolu kimi kodlaşdırdılar.

Düzdü, soyadından hamıdan çox özünün zəhləsi gedirdi, amma bu adda həm də bir hikmət, kəramət vardı. Bunu sonralar bildi, qapılar üzünə taybatay açılanda: "Çalağanov belə deyir", "Çalağanov məsləhət gördü ki...", "Əgər Çalağanov deyirsə..." – deyib istər-istəməz onunla razılaşanda...

Xoşbəxtlikdən ailə qurduğu qadın da adından çox, soyadını əzizlədi.

Sonralar özü də adını unutdu...

Bu uzun-uzadı müqəddimədən sonra hekayəmizin qəhrəmanıyla tanış olmağın vaxtı çatıb. Çalağanov altmış bir yaşında, iri cüssəli, dolu bədənli, babası kimi sallaq bığlı, gözləri göz çuxurunun dərinliyində yetişməmiş mor tut kimi işım-işım işıldayan müəmmalı bir adamdı. Onu tanıyanlara elə gəlir ki, Çalağanov anadan olandan özüylə gözəgörünməz xətkeş gəzdirir, ölçüb-biçməmiş, toplayıb-çıxmamış, kök altına salıb çıxarmamış bir addım da atmır.

***...Bəxtin üzə gülməyi, fişəngin atılmağı və uğur böcəyi ...***

Xətkeşi sayəsində Çalağanov altmış bir yaşınacan nə istədisə, hamısını əldə elədi: gözəl ailə, vəzifə, sərvət, çoxlarının qibtə edəcəyi barlı-bəhərli həyat...

Amma bir gün ona elə gəldi ki, həyatında nəsə çatışmır. Mühüm, çox mühüm nəsə. Xeyli baş sındırandan sonra ona elə gəldi ki, əslində həyatında heç nə yerində deyil. Çatışmazlıqların konturları üzə çıxanda, içində ucsuz-bucaqsız boşluq yarandı. Peşmançılıq küləkləri əsdi, nigarançılıq yağışı yağdı, təəssüf vulkanı püskürdü. Yox, o təslim olmayacaqdı, lazım gəlsə, qədərini pozub yenidən yazacaqdı. Axtarışları nəticə verdi: həyatının ən böyük səhvi üzə çıxdı: düzgün olmayan seçim!

***...Tərəddüd eləmə, istədiyini seç, səni gilyotinə aparmırlar...***

Uşaq vaxtı onu ancaq qaymaqçiçəyinə oxşayan sarışın qızlar həyəcanlandırardı. Böyüyəndə bu istək bir az da böyüdü, ürəyinin qapısından ancaq sarışınlar boylandı. Amma həyat bağçasında belə olmadı, insanpərvərliyi başına vurdu, anasının qara kişmiş deyib gecə-gündüz təriflədiyi çəlimsiz qonşu qızıyla evləndi. Həssas, kövrək, göz yaşı ovcunda olan qadınlardan ötrü ürəyi gedə-gedə, bir ömür "soyuq cərəyan"la bir yastığa baş qoydu. Dəmir iradəsi, tükənməyən səbri, polad əsəbləriylə ürəyinin əksinə getdi. Getdi, getdi, getdi...

Düzdü, soyuq cərəyan ona üç yaraşıqlı oğlan bağışladı. İndi onların üçü də ataydı. Altı nəvəsiylə açıqdan-açığa fəxr edirdi. Amma bunlar təskinlik üçün bəs eləmirdi. 61 yaşında düşdüyü boşluq ölüm çuxuru kimiydi, ya cəhd edib çıxacaqdı, ya da...

***...Çiçək dörd ləçəyini itirib yeganə ləçəyinə böyük ümidlərlə baxırdı...***

Fikrini qətiləşdirdi. Düşündü ki, insanın dünyaya gəlməyi milyonda bir təsadüfdir. İkinci dəfə bu şans ona verilməyəcək, "Seçim et" – təklifi də nə göydəkindən, nə də yerdəkindən gələcək.

Vaxt daralır, qocalıq zınqırovlu ilan kimi ona tərəf sürünürdü. Mənəvi böhran keçirdiyi belə bir vaxtda həyatında möcüzə baş verdi: xəyallarında rəqs edən, ən çətin anlarında gözünün qabağında gülümsəyib ona göz vuran, yaşamağa həvəsləndirən Sarışın peyda olub dünyasını səhra qasırğası kimi yerindən oynatdı. İpək saçlı, ala gözlü, çəhrayı dodaqlı Sarışın ona seçim imkanı verdi. Bu seçim qarşısında Çalağanov sarsıldı, gözlərini yerə dikib Tanrıya yersiz bir sual verdi: "İlahi, yer üzündə belə sarışınlar ola-ola, quru balıqla gün keçirməyin başqa adı nədi?" Ağlına cəhənnəm sözündən başqa heç nə gəlmədi.

Qoca mömininin son tövsiyəsini xatırladı:

***...Bu dünyada cənnət ola-ola, cəhənnəmi seçmək ağılsızlıqdır...***

Çalağanov boşanmaq üçün axtardığı üç əsas səbəbi, əslində bəhanəni göz qırpımında tapdı: xasiyyətimiz tutmur, mən danışanda o həmişə uzaqlara baxır, qonşu istirahətə gedəndə pişiyini uşaqların anasına əmanət elədi, yazıq pişik üç gün qapının ağzında ilan dili çıxarıb yemək istədi, arvadımın tükü də tərpənmədi.

Məhkəmə bəhanələri ciddi qəbul eləmədi. Amma arvadı ərinin istəyinə qarşı çıxmadı. Nə ağladı, nə sızladı, nə də səsinin tonunu qaldırdı. Soyuq cərəyan qüruruyla "Boşanmaq istəyirsən, boşanaq!" – dedi.

***...Şah deyilsən ki, məğlub olanda tacını itirəsən, gülümsə...***

O gün Çalağanovun həyatının ən bəxtəvər günüydü. Həmin gün günəş onun şərəfinə çıxmışdı, quşlar ona görə cəh-cəh vururdu, adamların üzündəki təbəssüm ona hesablanmışdı...

***...Sevgi, çəkisizlik və yoxluq...***

Sevgiyə gedən yolda bütün qapılar üzünə taybatay açılırdı. Açılan hər qapı onu Sarışının hüzuruna aparırdı. Sarışının ılıq təbəssümü, işıqlı gözləri, zərif səsi onu səsləyirdi. Qırxıncı qapının ağzına çatanda nəfəsinin odu dodaqlarını qarsaladı. Bu qapı, gərək ki, qızıldanıydı, yoxsa belə göz qamaşdırmaz, işıq saçmazdı. Amma indi qızıl hayında deyildi. Qızldan qiymətli ala gözlü, albalı dodaqlı, qızılı saçlı Qasırğa qapının o üzündəydi....

Həyəcanını ört-basdır eləmək üçün bir addım geri çəkilib qapının açılmasını gözlədi. Qapını açan kimi həyatı kökündən dəyişəcək, hər şey o istədyi kimi olacaq, bütün boşluqlar dolacaqdı...

***...Yeriyirdi, ayaqları yerə dəymirdi, uçurdu, qanadları yoxuydu, o, sadəcə, sevirdi...***

Qapı özünü naza qoyub qızıl anların ömrünü uzadırdı. Bu dəfə qapını barmaqlarıyla yox, ürəyiylə döydü.

Gözlədiyi qapı yox, qonşunun qapısı açıldı. Başına çalma bağlamış kök qadın yorğun səslə:

– Getdi, – dedi.

İnanmadı. Gülümsədi. Təbəssümünün üstündə elə bil iri şriftlərlə bu sözlər yazıldı: Lütfən, xoşbəxtliyimə kölgə salma!

Qonşu qadın başını yelləyib dönüb getmək istəyəndə yenə insafı yol vermədi. Demək istədiyini qorxa-qorxa birnəfəsə dedi:

– Dünən dəf-dumbulla Dubay şeyxinə ərə getdi.

***...Elə həqiqətlər var ki, onlara inanmayın...***

Heç o da inanmadı. Həmin gün nikah bağlayacaqdılar, sonra da bal ayına gedəcəkdilər. İstanbul-Paris-Roma bileti cibində xəcalətdən tərləyirdi...

Çalağanov sonralar da bu həqiqətə inanmadı. İnamsızlıq onu elə yeyib-bitirdi ki, həyatında Sarışının olub-olmadığına şübhə etməyə başladı, bağ evində gizlətdiyi boşanma kağızına baxmağa belə ürəyi gəlmədi.

Hamıya elə gəlirdi ki, Çalağanov anadan olandan özüylə xətkeş gəzdirir. Bu yaşında, bu başında məlum oldu ki, Çalağanovun heç vaxt xətkeşi olmayıb.

***...İpək pərdələr, ipək xalçalar, ipək arzular...***

Qasırğa əhvalatından sonra Çalağanov soyadı elə bil soluxub yazıqlaşdı. Sayrışan qığılcımlar depressiyası onu cənginə aldı. Puç olmuş ümidlər cəngəlliyində bir müddət dolaşandan sonra özünü yığışdırdı.

Hərdən istəyir ki, əvvəlki həyatına qayıtsın, isti sözlərlə soyuq cərəyanın könlünü alsın, yarımçıq qalmış həyat hekayəsinin ardını yazsın, belə düşünəndə gözlərinin qabağında Sarışın peyda olub qasırğa kimi fırtına qoparır, şişkin dodaqlarını sağlam dişləriylə didişdirir, gözləri min oyundan çıxır, uzun, caydaq ayaqları durduğu yerdə "Lambada" oynayır, o da yaz qarı kimi əriyir, əriyir, əriyir...

Hər axşam da özünə yersiz bir sual verir: görəsən, Dubayda havalar necədir?

***...Sevgi qasırğa kimidir, ürəyin ən gözəl hisslərini kökündən qoparıb aparır, yerində rəngli xatirələr qalır, qalır, qalır...***